Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Azərbaycanda ailə institutu - nənə-baba dəyərinin rolu artır, ya azalır?...

**Azərbaycan xalqı ənənələrə, tarixi köklərə sıx bağlı olan xalqlardan olsa da, çox təəssüflər olsun ki, son illər bu sahədə müəyyən problemlər izlənməkdədir. Ailə institutunun formalaşmasında nənə və babaların, böyüklərin rolu danılmazdır. Nənə və babanın ailə institutunun formalaşmasında əhəmiyyətli rolları olsa da, amma bəzən onlar ailələrin arzuolunmaz üzvlərinə çevirilirlər. Təəssüf ki, belədir.**

Bu gün Azərbaycanda nənəsiz-babasız ailələrin sayı kütləviləşir. Buna səbəb kimi gəlinlərin qaynana və qayınata ilə yaşamaq istəməməsi göstərilir, nəticədə də böyük bir dəyərimizdən uzaqlaşırıq. Bütün araşdırmalar göstərir ki, uşaqların böyük ailə mühitində yetişməsi, nənə-baba yanında böyüyüb, hər gün onlardan sevgi görməsi onların tərbiyəsinə çox müsbət təsir edir. Nənə-babanın nəvələrini əzizləməsindən gözəl həyatda nə ola bilər ki?

**Nənəsiz-babasız evlər - itirən uşaqlardır...**

Ekspertlərin fikrincə, hazırda cəmiyyətimizdə iki nəsil arasında gedən, amma çox da açılıb-ağardılmıyan ziddiyyət, həyat tərzlərindəki fərqliliklər, anlaşmazlıqlardan ailədə ən çox uşaqlar öz payını alır. Onlar qeyd edirlər ki, "gəlinlər və qaynanalar", "atalar və oğullar" problemi kimi əsrlərlə davam edən soyuq savaşlarda itirən həmişə ailədə böyüyən uşaqlar olur. Artıq iki ayrı dövrün insanının bir evin içində səssiz-sakit yaşaması olduqca çətinləşib. Böyüklər buna "ayaqlar baş olub" deyir, kinayəylə, təəssüflə yanaşırlar. Halbuki insanlar yavaş-yavaş fərd olmağı öyrənirlər. Bu prosesin içində də assimilyasiya olan birinci növbədə geniş ailə modelidir. Beləcə, gənc ailələrdə doğulan balaca balalar da nənədən, babadan aralı böyüməyə başlayırlar. Nənə-babanın yanına qonaq getməklə, onların yanında böyümək, yəqin razı olarsınız ki, eyni şey deyil. Digər tərəfdən, xüsusilə iqtisadi səbəblərdən artıq evli cütlüklər az uşaq sahibi olmaq istəyirlər. Bu səbəndən də ailələr keçmişə nisbətən daha az insandan ibarət olur. Halbuki keçmişdəki insanlar ailələrinin böyüklüyü ilə fəxr edir, onun izdihamı ilə qürur duyurdular. Deməк olar ki əksəriyyətimizin nənə-babası, hətta ata-anası ailədə 6-7, bəlkə də, daha çox uşaq olub. Böyük bir ailədə yaşamağın mənfi cəhətləri olsa da, bir çox faydası da var. Bu qeydlər mətbuatda yer alıb.

**Azərbaycanda "cırtdan ailə" modeli yaranır…**

Sosioloq-jurnalist Lalə Mehralı bizimlə söhbətində bildirdi ki, bəzən bir bucaqdan baxmaq problemin kökündə



nələr dayandığını öyrənmək üçün kifayət etmir, bunun üçün hərtərəfli araşdırılma aparılmalıdır. "Gənclər böyüklərlə bir yerdə yaşamaq istəmir. Çünki daha çox sərbəstlik arzusundadırlar. Böyüklər də gəncələrlə bir evdə yaşamaq istəmir, ona görə ki, artıq daha sakit bir həyat arzulayırlar. Bu səbəbdən də bu məsələdə hər iki tərəfin ümumi fikri nəzərə alınır. Amma bəzən böyüklərin rəyi nəzərə alınmadan da gənclər ayrı yaşamaq istəklərini həyata keçirirlər. Bu onların haqqıdır. Amma uşaqların ailə böyükləri ilə bir mühitdə böyüməsi onların sosiallaşması üçün çox vacibdir. Məhz bu səbəbdən də Azərbaycanda "cırtan ailə" modeli getdikcə genişlənir. Ata-anadan və bir uşaqdan ibarət ailələr çoxalır. Bu halda ailənin formalaşmasında ciddi problemlər yaranır. Ata-ana gün boyu işdə, uşaq isə ya dayənin yanında, ya bağçada, ya da məktəbdə olur. Bu kimi hallarda nənə - babaya ailədə ehtiyac duyulur. Lakin gənc nəsil nənənin və babanın uşaqların tərbiyəsində mənfi xırdalıqlara yol verdiyini düşünürlər. Çünki nənə-baba usage öz istəklərinə, yaxud da uşağın istəyinə uyğun xarakterdə tərbiyə edirlər".

**"Uşaqları maksimum nənə-baba olan çevrədə böyütmək lazımdır"**

L.Mehralı hesab edir ki, buna da el dilində ərköyünlük deyirlər. Ekspert qeyd edir ki, gənclər, xüsusən də qızlar ailə qurmazdan əvvəl ayrı yaşamağı ilkin şərt kimi irəli sürür, bu alınmadıqda isə nişanını qaytarırlar, yaxud toyu təxirə salırlar. "Bunu "et", yaxud "etmə" demək çox çətindir. Çünki bəzi böyüklər, ata-analar var ki, onlarla bir yerdə yaşamaq çox çətindir. İnsan gün ərzində işdə, cəmiyyətdə yüklənir, axşam evdə maksimum dinclik axtarır, amma bu vaxt artıq söz-söhbət yaranır. İnsanlar daha çox rahatlığa dükündürlər, bir bir-birinin sözünü həzm edə bilmirlər. Buna görə də gənclər rahatlıq axtarır. Yaşlı nəslin nümayəndələrinə uyğunlaşmaq, yola getmək çətindir. Yaşlı insanlar var ki, yaşları ilə əlaqədar gənclərə uyğunlaşa bilməsə də, nəvəsinə, gəlinə, oğluna çox düşkün, kifayət qədər uyumlu, gözəl davranışlı nənələr-babalar çoxdur. Onların uşaqların böyüməsində, yetişməsində, təlim-tərbiyəsində, sosial adaptasiyasında rolları çox böyükdür. Bunu danmaq ədalətsiz olardı. Bütün hallarda nənə-babaların ailədə rolu böyükdür, əvəzsizdir. Xüsusən də gənc xanımlar bunun dəyərini bilməlidir. Uşaqları maksimum nənə-baba olan çevrədə böyütmək lazımdır. Çünki onlar daha çox humanist və daha çox sosial adaptasiya yönümlü davranışlara yiyələnmiş olurlar"-deyə L.Mehralı vurğuladı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**